FEYRUZ BAĞIROV

NAXÇIVAN · 2006



Bəhruz Kəngərli
1892 – 1922

MANZUM PYES · 2 PƏRDƏ · 2 ŞƏKİL

ƏZABLI GÜNLƏR

Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin ömrünün son illərindən bəhs edən tarixi manzum pyes — xalq teatrları üçün metodik vəsait.

NAXÇIVAN — 2006

Bəhruz Kəngərlinin xatirəsinə həsr olunur

FEYRUZ BAĞIROV

Əzablı Günlər

(Pyes)

Azərbaycan realist rəssamı Bəhruz Kəngərlinin ömrünün son illəriindən 2 pərdəli və 2 şəkilli tarixi-psixoloji mənzum pyes.

Xalq teatrı və özfəaliyyət dram dərnəkləri üçün metodik vəsait

Məsləhətçilər: F. Cəfərov, tarix elmləri namizədi;
S. Kəngərli, Əməkdar mədəniyyət işçisi;
S. Kəngərli, təqaüdçü, B. Kəngərlinin qohumu

Ön söz: N. Əzizəliyev, Naxçıvan MR Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru

Naxçıvan — 2006

> *Yer üzündə nadanlıq və səfalət hökm sürdükcə sənətkarın yaradıcı ömrü qısa olacaqdır.*
>
> — VİKTOR HÜQO

> *İnsanın şərəfi özünün qabiliyyətindədir.*
>
> — A. BAKIXANOV

Mündəricat

01 Ön söz 005

02 Nakam sənətkar — Bəhruz Kəngərli haqqında 007

03 Əzablı günlər — manzum pyes 013

— Proloq 014

— 1-ci şəkil 016

— 1-ci pərdə 019

— 2-ci pərdə 029

— 2-ci şəkil 034

04 Biblioqrafiya 038

N. ƏZİZƏLİYEV

Ön söz

Feyruz Abdulla oğlu Bağırov bədii yaradıcılıqda rəssam, foto-kino sənətkarı kimi, ədəbi yaradıcılıqda isə mənəvi elmi-publisist kimi formalaşmışdır.

O, dövrü mətbuatda mənəvi-tarixi və mədəni zənginliyi təbliğ edərək, ziyalılar arasında elmi-publisistik məqalələri ilə tanınmışdır.

F. Bağırov Muxtar Respublikada mədəniyyətin inkişafına dəyərli və yadda qalan töhfələrini vermiş. Haliyyədə Feyruz müəllim Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin Muxtar Respublika Elmi-Metodik Mərkəzində işləyir.

O, yorulmadan mədəniyyətlə yanaşı təhsilin də inkişafında gənclik həvəsi ilə yaşayır. Mədəniyyət və Təhsil Nazirliyi tərəfindən dəfələrlə ona fəxri fərmanlar verilərək əməyi qiymətləndirilmişdir.

F. Bağırov incəsənətin bir neçə növünə maraq göstərdiyindən Muxtar respublikanın kütləvi tədbirlərində əməli və metodiki sahədə əlindən gələni əsirgəməmiş.

Keçən əsrin səksəninci illərində ictimai əsaslarla "Gənclik" həvəskar kino studiyasına rəhbərlik edən F. Bağırov, "Naxçıvan toyu" adlı folklor filminə görə Bakı və Moskvadakı baxış müsabiqələrin qalibi olmuşdur. Həmin illərdə foto-kino reportyor kimi tanınmış F. Bağırovun lentə çəkdiyi sənədli-xronikal işləri arxiv və muzey fondlarında saxlanılır.

Feyruz müəllim tədris sahəsində işlədiyi illərdə ədəbi yaradıcılıqda qələmini sınayaraq bir neçə kitabların müəllifidir. Onun arxiv sənədləri əsasında qələmə aldığı Azərbaycanın realist rəssamı B. Kəngərlinin ömrünün son illərindən danışan "Əzablı günlər" adlı mənzum tarixi pyesi vardır.

2001-ci ildə həmin pyesin motivləri əsasında Naxçıvan Estetik Tərbiyə Mərkəzinin uşaq dram kollektivinin iştiraki ilə səhnələşdirilmişdir.

F. Bağırov "Əzablı günlər" pyesini 1921-22-ci illərdə Naxcıvanda cərəyan edən ictimai-siyasi hadisələri, arxiv sənədləri əsasında bədii obrazların dili ilə qələmə almışdır.

Həmin illərin tarixi hadisələri Naxçıvanın ictimai-siyasi həyatında baş verən ermənilərin Azəri türklərinə qarşı qəddarlıqları göstərilmişdir.

Müəllifin sosial tarixi-mənəvi mənzum pyesi müasir oxucular üçün dramatik janrda yazılmış ilk işidir. Pyesdəki hadisələr yığcam və ardıcıllıqla obrazların dili ilə oxucuya çatdırılır.

Əsərdəki Şirəli bəylə komissar Mirzalı bəyin dialoqu, oxucuda milli dəyərlərimizə qarşı amansızlıq nifrətə səbəb olur. Birinci pərdədə Şirəli bəylə qaçqın qadın Gülsümün dialoqundan məlum olur ki, erməni vəhşilikləri xalqımıza vurulan mənəvi-tarixi zərbə kimi ictimai dövrün "əzablı günlər"inə gətirib çıxarır.

Pyesdə Bəhruzun ömrünün son günləri psixoloji şəkildə verilərək, onun çəkdiyi "yarımçıq qalmış şəkli"ndən oxuculara xəbər verir. Əsərin finalında sənətkar ilə vida mərasimi maraqlı qələmə alınmışdır.

Müəllif rəssamın Naxçıvan mədəniyyətinə xidmətlərini obrazların dili ilə yada salmışdır.

"Əzablı günlər" mənzum pyesi əsasən xalq teatrları üçün metodik dram əsəridir. Əsərdəki obrazların dialoqları bəzən yığcam olmadığından həvəskar aktyorlara çətinlik yarada bilər. Pyesdəki danışıq ifadələri 1920-22-ci illərin Naxçıvan ləhcəsində işlədilir. Ona görə də obrazlarda kiçik ədəbi qüsurlar olsa belə əsər xalqımızın leksik tarixi mədəniyyətini öyrənənlər üçün əhəmiyyətlidir.

Ədəbi yaradıcılığını inkişaf etdirməkdə olan müəllifə uğurlar arzulayaq.

Nizami Əzizəliyev

Naxçıvan MR Mədəniyyət üzrə

Elmi-Metodik Mərkəzin direktoru

Nizami Əzizəliyev

Naxçıvan MR Mədəniyyət üzrə

Elmi-Metodik Mərkəzin direktoru

BƏHRUZ KƏNGƏRLİ HAQQINDA

2 Nakam sənətkar



Bəhruz (Şamil) Şirəli bəy oğlu Kəngərli, 1892-ci ilin 28 fevral tarixində Naxçıvan şəhərindəki “Cığatay məhəlləsi”ndə rus çar məmuru ailəsində anadan olmuşdur.

Atası Şirəli bəy Murtuz bəy oğlu Kəngərli 1864-cü ilin 11 mart tarixində Naxçıvanda ziyalı ailəsində doğulmuşdur.

Şirəli bəy Naxçıvandakı qəza məktəbini bitirdikdən sonra 1878-ci ildə Tiflis gimnaziyasına daxil olaraq və 1883-cü ilin 8 iyun tarixində gimnaziyanın 6-cı kursunu bitirmişdir.

O, 1883-1886-cı illərdə hərbi qulluqda xidmət etmişdir. Şirəli bəy hərbi xidmətdə “Əla atıcılığa görə” döş nişanı alaraq 2-ci dərəcəli zabit rütbəsi almışdır.

Şirəli bəy 1897-ci ildən Naxçıvana qayıdaraq Ali məhkəmədə (Mirovoy sud) mülki qulluqçu (məhkəmə katibinin dilmancı) vəzifəsinə işə girmişdir.

O, 1900-cü ilin 12 mart tarixdən ərizəsinə görə işdən azad olmuş və Naxçıvan qəzasında ata-babasından qalmış Kültəpə ilə Teyvaz kəndlərində mülkədarlıq etmişdir. Bir müddət həmin kəndlərin torpaq ərazilərindəki meyvə bağlarının gəliri ilə ailəsini dolandırmış.

Mülkədar Şirəli bəy Kəngərli 1908-ci ilin 17 noyabr tarixdən Naxçıvan qəza polis (jandarma) idarəsində tərcüməçi məmur vəzifəsində işə götürülmüşdür. Polis məmuru Şirəli bəy, 1911-ci ilin noyabr ayınadək həmin vəzifədə işləmişdir. Daha sonra yenidən ərizəsi əsasında işdən çıxan Şirəli bəy mülkədar kimi kəndlilərin əkib-becərdikləri

təsərrüfatdan gələn gəlir hesabına ailəsini dolandırmışdır. (bax; F. Cəfərov “B. Kəngərli ömürü”, “Şərq qapısı” qəzeti, 2002-ci il, № 163)

Bəhruz anadan olanda anası Əzizə xanım uşaq üstə keçinəndə, ömür-gün yoldaşı Şirəli bəyə çağasını tapşıraraq uşağa özünün babası Şamil bəyin adının qoyulmasını istəmişdir...

Körpə Bəhruzun taleyi uğursuzluqla başlasa da ana nənəsi Xatun xanım 12 il müddətində uşağa nəvaziş göstərərək dayəlik etmişdir. Xatun nənə Bəhruza ana babası Şamilin adını qoyduğundan uşaq iki adla çağrılırdı.

Anasının qohumu Molla Talıbın məsləhəti ilə Bəhruz yeddi yaşında olanda məhəllədəki məsciddə (mədrəsəyə) oxumağa qoyurlar. Lakin Bəhruz tərslik edərək elə ilk gündən oxumağa getmək istəmir. Bir gün atası hirslənərək yuxulu uşağı kötəkləyir. Qorxudan Bəhruzun qulaqları kar, dili isə lal olaraq xəstələnir. Şirəli bəy peşimançılıq çəkərək bir ay müddətində Teyvaz kəndindəki ağalıq evində qalır.

Şikəst uşağa Molla Talıb nə qədər dua yazsa da əlac olmur. Bir neçə illər gəlib keçir. Şirəli bəy feldşer Mirzə Əli ilə məsləhətləşərək Bəhruzu el adətinə görə sünnət etdirmək istəyir. Xıdır bayramı ərəfəsində Şirəli bəy evlərinə qohum əqrabalarını dəvət edir.

Bəhruz kirvəsi feldşer Mirzə Əlinin qucağında oturanda dəllək Orucəlinin əlindəki iti ülgucü görüb çığıraraq nənəsini çağırır.

Bəhruzun çığırtısına qonaqlar gülüşsələr də Molla Talıb əllərini göyə qaldıraraq uşagın dilinin açılmasına dua edir...

Bəhruzun dili açılaraq bir qulağı da eşidir.

1904-cü ildə uşağın 12 yaşı tamam olanda Şirəli bəy Bəhruzu şəhərdəki “Tərbiyə” (Rus-tatar) məktəbinə oxumağa qoyur.

1905-ci ilin “Novruz bayramı” günündə qonşu qızı Şirinay Vəzirova ilə evlənərək məsciddə kəbin kəsdirib Bəhruza ana gətirir.

Şirəli bəyin arvadı Şirinaydan Tahirə sonra isə Mənsurə adlarında qızları da doğulur.

1907-ci ildə Bəhruz “Tərbiyə” məktəbini on beş yaşında itirir.

Bəhruzun sinif yoldaşları olmuş Əziz Şərif, Əli Qasımov, Həsən Əliyev, Seyfulla Kəngərli, Bəxtiyar Kəngərli, Abbas Qasımov, Əli Vəliyev, Ağa Vəzirov, Cəlal Vəzirov, Nəcəf Sultanov, Əli Xəlilov, İbrahim Nəsirbəyov, Cabbar Şeyxov, Həsən Qənbərov və başqaları idi.

Qulağının biri eşitməyən kiçik Bəhruzun məktəb müəllimlərindən Məmmədhüseyin Novruzovla Varvara Krapina, məktəb nəzarətçiləri Bəhram Naxçıvanski ilə Ələkbər Süleymanov uşağın bacarıqlı olmasını atasına bildirmiş və ondan şikayət etməmişlər.

Lakin xəstə Bəhruz utanaraq məktəbli yoldaşlarından ayrı gəzib və onlarla oynamaq istəmirdi.

Məktəbi bitirdikdən sonra Bəhruz rəsm çəkməyə həvəs göstərir. O, atasının abunə yazıldıgı "Molla Nəsrəddin" jurnalındakı rəngli karikaturaları ağ kağıza bacarıqla köçürür.

Bundan fərəhlənən Şirəli bəy oğluna Tiflisdən boya dəsti ilə qələm, fırça və ağ kağız qovluğu da alıb gətizdirir. Bəhruz atasının aldığı qovluğu qoltuğuna vuraraq şəhər kənarında rəsmlər çəkir.

Naxçıvan teatrının yaradıcılarından biri olmuş ziyalı Eynalı bəy Sultanovun məsləhəti ilə Bəhruzu Tiflisdəki rəssamlıq məktəbinə qoymağa göndərirlər.

1910-cu ildə Bəhruz Tiflisdəki "Qafqaz İncəsənəti Təşviq Cəmiyyəti"nin nəzdindəki Boyakarlıq və Heykəltaraşlıq Məktəbində (1910-1915) oxuyur.

O, Tiflisdə oxuyanda Eynalı bəyin vasitəsi ilə C. Məmmədquluzadənin redaktor olduğu "Molla Nəsrəddin" jurnalındakı rəssamlar Rotter və Şmerliqlə də tanış olur.

1914-cü ilin yayında Bəhruz Naxçıvanda ilk rəsm sərgisini açır. Həmin sərgiyə şəhərin tanınmış ziyalıları ilə bərabər Əkbər bəy Kəngərli də sevimli qızı Nazlı ilə gəlir. Sərgidən razılıq edən ziyalılar "İqbal" qəzetində gənc rəssamın uğurlu sənətkarlığından xoş xəbərlər yazmışlar.

Bəhruz rəssamlıq məktəbini bitirdikdən sonra 1916-cı və 1920-ci illərdə əsərlərinin satış sərgisini açmağa nail olmuşdur.

Həmin illərdə gənc rəssamın ailə vəziyyəti ağırlaşdığından, qazanc məqsədi ilə siyasi təşviqatla portret janrına həvəs göstərir...

Naxçıvandakı M.F.Axundov adına Dram Teatrında Bəhruz işə götürülərək, tamaşalara tərtibat verib boş vaxtlarında isə oradakı rəsm dərnəyinə rəhbərlik edir.

Onun tamaşalara çəkdiyi tərtibat işləri Ə. Haqverdiyevin "Pəri cadu," M.F.Axundovun "Hacı Qara," C. Məmmədquluzadənin "Ölülər" və sairə olmuşdur.

Bəhruz Kəngərlinin teatrda ictimai əsaslarla rəhbərlik etdiyi rəsm dərnəyinə istedadlı gənclərdən Adil Qazıyev, Həsən Əliyev, Şamil Qazıyev, Həmid Mahmudov, İdris Səlimov və başqaları cəlb olmuşdur.

1921-ci ilin əvvəllərində Naxçıvanın fövqəladə komissarı Bahadur Vəlibəyovun təşəbbüsü ilə Bəhruzun əl işlərinə lotereya biletləri satılır. Komissar bütün bu işləri təşkil etmək üçün Qadınlar klubunun müdirəsi Cənnət Talıbzadəyə həvalə edir.

Bəhruz lotereya biletlərindən gələn gəlirin bir hissəsinin pulunu ala bilmədiyi üçün, komissar Əliheydər Qarayevə şikayət ərizəsi yazmalı olur. Qadınlar klubunun müdüri satılmış lotereya pulunu yığaraq və heç kəsə demədən Bakıya köçür.

Komissar Ə. Qarayevin göstərişi ilə Bəhruz Kəngərlini Naxçıvan Ölkə Xalq Maarif Komissarlığında, 1 iyul 1921-ci il tarixdən rəsm şöbəsinə işə təyin edilir.

Lakin uzun sürən xəstəlikdən əziyyət çəkən Bəhruz Maarif Komissarlığındakı təzə işinə gedə bilmir. O, sənət həvəsi ilə yaşayaraq xəstəliyi ilə mübarizə aparıb və üzərində işlədiyi "Naxçıvan çaparı" Məcidin portretini tamamlaya bilmir.

Uzun müddət kirvələri feldşer Mirzə Əli xəstə Bəhruzun müalicəsi ilə məşğul olsa da, taleyin hökmünə qalib gələ bilmir. 30 yaşlı nakam sənətkar uzun sürən vərəm xəstəliyindən dünyadan köçməli olur.

1922-ci il 7 fevral tarixində Naxçıvanlı ziyalılar Azərbaycanın ilk realist rəssamı Bəhruz Şirəli bəy oğlu Kəngərlinin ruhu ilə vidalaşmağa gəlirlər. Mərhumun cənazəsi əbədilik dünyasına tapşırılanda ana qohumu Molla Talıb, Qurandan "Yasin" surəsini avazla oxuyanda, teatrın gənc aktyoru Həmid Mahmudov hönkürərək ağlamışdır...

Nakam sənətkarın yadigarlarını - qızıl üzüklə, çərtilməmiş qələmi mücrürüyə qoyub məzarı torpaqlayırlar. Bəhruzun cənazəsini Mirzə Sidqinin məzarı yaxınlığında (əqrabalarının məzarları yanında) dəfn etmişlər...

1958-ci ildə Kəngəli soyundan olan tutulmuş adamlar hökumət tərəfindən bəraət alırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab V. Talıbovun

təşəbbüsü ilə 15 fevral 2001- ci il tarixdə “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” sərəncam verilmişdir. Bu münasibətlə B. Kəngərlinin məzarı yanında heykəl ucadılmış (heykəltaraş Hüseynqulu Əliyevdir), adına sərgi salonu ilə muzeyi də yaradılmışdır.

2002-ci ilin iyun ayından fəaliyyət göstərən muzeydə iştirak edən Azərbaycanın prezidenti H. Əliyev, “Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir” sözlərini demişdir.

Haliyyədə Bəhruz Kəngərlinin muzeyində 370 adda eksponat toplanaraq nümayiş etdirilir.

Nakam sənətkarın Bakıda ögey bacılarının əqrabaları, Naxşıvanda isə əminəvəsi, təqaüddə olan Sabir Kəngərli yaşayır.

Bəhruz Kəngərlinin xatirəsi sənətsevərlərin qəlbində qalaraq, əsərləri mədəniyyət tariximizdə irs olacaqdır. Məktəbli gənclər tez-tez muzeyə gələrək rəssamın əsərlərindən faydalanırlar.

Allah Ruhuna rəhmət etsin! Amin!

Azərbaycanın ilk realist rəssamı
Bəhruz Şirəli bəy oğlu Kəngərlinin
əziz xatirəsinə həsr olunur.

FEYRUZ BAĞIROV

Əzablı günlər

(2 pərdə 2 şəkilli mənzum pyes)

İştirakçılar

Şirəli bəy Kəngərli 58 yaşında, Bəhruzun atası.

Şirinay Vəzirova 34 yaşında, Bəhruzun ögey anası.

Mənsurə 12 yaşında, Bəhruzun ögey bacısı.

Mizalı bəy Bəktaşi 42 yaşında, komissar.

Həmid Mahmudov 29 yaşında, həvəskar aktyor.

Molla Talıb 60 yaşında, məscidin axundu.

Bəhruz Kəngərli 30 yaşında, rəssam.

Tahirə 16 yaşında, Bəhruzun ögey bacısı.

Gülsüm 40 yaşında, qaçqın qadın.

Mirzə Əli Abbasov 56 yaşında, feldşer.

Məşhədi Orucəli 60 yaşında, dəllək.

(On nəfər dəfn mərasimindəki adamlar.)

1922- ci ilin əvvəlində Naxçıvandakı real tarixi hadisələr və adı çəkilən şəxsiyyətlər, arxiv sənədləri əsasında yazılmışdır.

PYESİN GİRİŞ HİSSƏSİ

Proloq

Səhnədə pərdə salınmış. Sağ tərəfdən Şirəli bəy nimdaş məmur paltarında, əynində palto, əlində qovluq, başında bəylərə məxsus papaq, gözündə zəncirli çeşmək, buğlu-saqqallı qiyafədə gəlir. O, səhnənin ortasına çatanda sol tərəfdən də komissar Mirzalı bəy tələsik çıxır. Onun başında börk, gödəkcəsinin döş hissəsində qırmızı bant, belində tapança qoburu, ayağında isə uzunboğaz çəkmə geyimindədir.

Onlar üz-üzə çatanda hər ikisi qorxaraq bir anlığa ayaq saxlayıb bir-birlərinə baxırlar.

Şirəli bəy: Salamun əleykum Mirzalı!

Mirzalı bəy: Əleykumə salam ay Şirəli bəy! (Mirzalı bəy kimdənsə qorxurmuş kimi ətrafına oğrun-oğrun baxaraq birdən əl verib Şirəli bəylə səmimi görüşür.)

Mirzalı bəy: Ay Şirəli bəy, səni göydə axtarırdım, yerdə əlimə düşmüsən.

Şirəli bəy: Xeyir ola abəy, məni nə əcəb axtarırsan? Olmaya məhkəməyə ərizə yazdıracaqsan?

Mirzalı bəy: Şirəli bəy, deyəsən işlər şuluqdur. Bu günə sabaha Naxçıvan Diyar İnqilab Komitəsində fövqəladə iclas keçiriləcək.

Şirəli bəy: Komitəyə görəsən kimi sədr seçəcəklər?

Mirzalı bəy: Aldığım məlumata görə Naxçıvanda Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsi yaradılacaq yəqin ki Firqə Komitəsinə də Əhməd bəy Haşımovu seçərlər.

Şirəli bəy: Abəy, heç bunların mənə nə isti-soyuğu vardır?

Mirzalı bəy: Təzə yaranmış komitədə Bakıdan gələn uruslarla yanaşı ermənilər də vardır.

Şirəli bəy: (Çiyinlərini çəkərək.) Bütün bunların mənə nə dəxli var?

Mirzalı bəy: Dəxli vardır, abəy. Çünki erməni dığalarından səni ələ verənlər vardır.

Şirəli bəy: Axı bir aydınca başa sal görüm, mən nə pis iş görmüşəm və günahım nədir?

Mirzalı bəy: Bil ki, o adamlar əvvəllər Bakı komissarı olmuş daşnak Şaumyanın əlaltılarıdır. İndi onlar iş başındadırlar.

Şirəli bəy: Yaxşı bəs Şaumyanı ingilislər tutub iyirmialtılarla bərabər güllələməyiblər?

Mirzalı bəy: Orası elədir, Şaumyan it kimi gəbəribdir. Ancaq Teyvaz ermənilər hökumətə danos vermişlər ki, sən mülkədarsan. Atandan qalma Teyvazla Kültəpə kəndləri sənindir.

Şirəli bəy: Görüm ermənilərin kökü kəsilsin. Neçə ildir ki, işdən çıxıb həmin kəndlərin hesabına ailə-uşağımı gücünən dolandırıram. Varımı-yoxumu da yaxşı bilirsən ki, Bəhruzun oxumasına xərcləmişəm.

Mirzalı bəy: İndi ermənilər sənin kimi yoxsul mülkədarları danoslayaraq "qara siyahıya" salmaq istəyirlər.

Şiləli bəy: Bəy bilirsən ki, mən vətənpərvər ziyalı Kəngərli Murtuza bəyin oğluyam. Hökumət işindən çıxandan sonra kasıblamışam. Necə deyim bir həsir bir də məmməd nəsirəm. (Onlar hər ikisi gülüşürlər.)

Mirzalı bəy: Bəy əvvəlki illərdə sənin bizə etdiyin yaxşılıqları unutmamışam. Dünən "qara siyahı"nı ələ keçirib sənin adının yerinə Xaçaturun adını yazdım.

Şirəli bəy: Yaxşı çox sağ ol. İndi mən nə edim, məsləhətin nədir? Axı...

Mirzalı bəy: Axısı zadı yoxdur. Məsləhətim odur ki, get üz-gözünü təraş etdir. Başına şapqa qoy, qiyafəni də dəyiş. Olginən "raboçiy- bednyak" vəssalam. (Hər ikisi gülüşürlər.)

Şirəli bəy: Dostum, deyirsən elə doğrudan bığ-saqqalımı qırxdırım?

Mirzalı bəy: Bəli! Ağsaqqal kişisən, sənin zarafatım var bəyəm? Vəssəlam di xudahafiz! Mən tələsirəm. (Onlar gəldikləri tərəfə qayıdaraq, pərdənin arxasına keçirlər. Pərdə açılır.)

BİRİNCİ HİSSƏ

1-ci şəkil

Naxçıvan şəhərinin bazar meydanında bərbərxana dükanı. Dəllək Məşhədi Orucəli dükanın qapısı ağzında çömələrək oturmuş. Əlindəki ülgücünü bülövə sürtərək öz-özünə zümzümə edərk oxuyur.

Məşhədi Orucəli: (Oxuyur.) "Ay müştəri gəl bəri, mənə salam ver barı, məni dilşad etginən.." (Sağa tərəf çevriləndə Şirəli bəyin ona tərəf gəldiyini görüb ayağa qalxır.) Ay xoş gördük səni ay Şirəli bəy. Necəsən? Bəhruz necədir? Özündən muğayat olsun. Eşitdim yenə azarlamış.

Şirəli bəy: Xoş günün olsun, ay Məşhədi Orucəli! Necəsən, kənddə nə var, nə yox?

Məşhədi Orucəli: Sənin qadan alım abəy! Allahın köməyi ilə sağ-salamatıq. Teyvazda da Kültəpədə də salamatçılıqdır.

Şirəli bəy: Çoxdandır ki, sənə baş çəkmirdim. Dedim ki, bu gün yaxşı gündür gəlim səndən hal- əhval tutam.

Məşhədi Orucəli: Xoş gəlib, dükana bərəkət gətirmisən. Di gəlginən içəri, eşikdə soyuqdur. (Onlar içərisi görsənən bərbərxanaya girirlər.) Məşhədi Orucəli çuxasının ətəklərini belinə bağlayıb büzməli qurşağına keçirərək, müştərisinin oturmasına yer göstərir. Şirəli bəy ədəblə kətildə otururaq üzünü dəlləyə tutur.

Şirəli bəy: Ay Məşhədi, allahdan gizlin deyil, bəndədən nə gizlədim. Məsləhət görürlər ki, bığ-saqqalımı qırxdıram. Sənə bir az zəhmət verəciyəm.

Məşhədi Orucəli: Yəni deyirsən ki, bığ-saqqalıvı tər-təmiz ülgücdən keçirim?

Şirəli bəy: Bəli! Nə dedimsə elədə işə başla! (Dəllək Orucəli fitə-dəsmalını qaydasınca "müştərinin" boyun-boğazına salır. Əlinə ülgüclə sabun qabını götürür.

Məşhədi Orucəli: Bismillah! (O, bir az duruxaraq nəyi isə yadına salmaq istəyir.) Ay Şirəli bəy, görüm ülgüc tutan əlim qurusun! Bəhruzun sünnət şirinliyində mən bir qələt eləyib uşağı qorxutdum. Gərək məni bağışlayasan, keç günahımdan.

Şirəli bəy: Allah köməyin olsun! Ay rəhmətliyin oğlu, keçən günləri yada salma. Bəhruzu sən yox, mən sillələyib qorxuzmuşdum... Di başla görək vaxt dala qayıtmır. (Dəllək Orucəli işini görüb qurtardıqdan sonra bəyin üz-gözünə Məşhəddən gətirdiyi ətirdən sürtür.)

Məşhədi Orucəli: Əlhəmdu Lillah! Bəy, mən işimi bitirdim. Maşallah gör necə də cavanlaşdın? Hə, bayaqdan yadımdan çıxıb soruşam. Mirzə Əli kirvə necədir, Bəhruza dava-dərman edirmi? Kişi yaxşı doxturdur. Allah ona kömək olsun! Amin!

Şirəli bəy: Çox sağ ol! Kirvə Mirzə Əli də yaxşıdır. Bəhruzu elə ayağa qalxızan odur. Allah onun ata-anasına rəhmət eləsin! Yaxşı istiqanlı qohumdur.

Məşhədi Orucəli: (Əlindəkiləri güzgünün qabağına qoyub və müştərisinin boynundakı fitə-dəsmalı açır.) İndi dura bilərsən. Sənin qadanı alım abəy. Sən bu millətin qayğısını çox çəkmisən. (Şirəli bəy ayağa duraraq cibindən onluq kağız pul çıxarıb sıxır dəlləyin ovcuna.)

Şirəli bəy: Çox sağ ol. Ay usta sənə əziyyət verdim. Əllərin ağrımasın.

Məşhədi Orucəli: Ay rəhmətliyin oğlu pul lazım deyil. Məni bu dükanda çörəyə çatdıran sənin rəhmətlik atan Murtuz bəy olmuş. İndiyəcən Kültəpədə qalsaydım canım çıxmışdı. Yenə hər gün burada çörək pulu çıxır. Allah səndən də razı olsun ki, yayda burada meyvə satıram, qışda da dəlləklik edirəm.

Şirəli bəy: (Qorxaraq) Məşhədi Orucəli, bu sözləri dedin daha demə. İndi daha mən sən gördüyün bəylərdən deyiləm. Sənin kimi mən də "bednyakam." Halal et məni, indi təzə hökumətdən qorxuram.

Məşhədi Orucəli: Sənin qadan alım abəy. Mən çörək itirən deyiləm. Sənin atanda, özündə bu Naxçıvan camaatına Allah bilir ki, necə yaxşılıqlar etmisiniz.

Şirəli bəy: Allah sizdən razı olsun. Ölüm-itim dünyasıdır. Halal edin ki, Allaha da xoş gəlsın.

Məşhədi Orucəli: Abəy bu nə sözdür deyirsən. Allah səni bizlərə çox görməsin. Allah o bir oğluna kömək olsun! Abəy soruşmaq ayıb olmasın bednyakdır nədir o, andıra qalmış dilimdə çönmür deyəm?

Şirəli bəy: (Əlini buğuna çəkərək gülümsənir.) Ay usta bednyak urusucandır. Yəni ki, ikimiz də elə bir bezin qırağıyıq. Bir həsir-bir məmməd nəsirik.

Məşhədi Orucəli: (Fikrə gedib başını qaşıyır.) Vallah abəy lənət olsun urusa-ermənіyə ki, dediyın sözdən bir zad qanmadım.

Şirəli bəy: Halal-xoşun olsun, di sağ ol mən getməliyəm.

Məşhədi Orucəli: (Ovcundakı pula baxaraq "müştərisi"nin ağlının azaldığını zənn edərək, əllərini göyə tutur.) Allah, sənə çox şükür. Bəyi yaman gözdən, əzablı günlərdən qoru! Amin! (Onlar əl-ələ verib vidalaşaraq ayrılırlar. Şirəli bəy səhnədən çıxandan sonra şəkil qaldırılır.)

(1-Cİ ŞƏKLİN SONU.)

İKİNCİ HİSSƏ

1-ci pərdə

Səhnənin arxa planında iki pəncərəli bir qapısı olan bişmiş kərpicdən tikilmiş bir mərtəbəli ev. Həyət hasarındakı darvaza qapısı iki tağlıdır. Ön olanda yarpaqları tökülmüş alça ağacı. Evin qapısında səkidə çevrəli mizlə əymə kətillər qoyulmuşdur. Şirəli bəy başında uzun dimdik şapqa, əynində nimdaş çuxa, saqqalı qırxılmış halda fikirli-fikirli ev qapısında çıxaraq gəlib kətillərdən birində oturur.

Şirəli bəy: (Öz-özünə danışır) Pərvərdigara, belə də iş olar?

Yaşadıq-yaşadıq gəlib əzablı günlərə çatdıq. İndi mən camaat arasına necə çıxım?

(Qorxa-qorxa o tərəf bu tərəfə baxıb və nəyə isə qulaq asır.)

Canım kişinin papağı olar bığ-saqqalı olar...

(O, yenə də ayağa durub və ətrafa diqqətlə qulaq asır. Nədənsə qorxmuş kimi kətilin üstündə oturur.)

Ömrümü rus çarının qulluğunda çürütdüm, indi də təzə “rus bolşevikləri” ayrı hava çalır.

(Şirəli bəy çuxasının cibindən alışqanla dəmir siqar qutusunu çıxarır. O, siqaretini odlayaraq öz-özünə danışmağını davam edir.)

Bəhruzun anası rəhmətlik Şahbaz ağa Kəngərlinin qızı Əzizə xanımı vaxtsız itirdim. Uşaq yetim qalmasın deyə Şirin xanımı ona analıq gətirdim. O da ki belə...

(Şirəli bəy siqaretinə qullab vuraraq öz-özünə danışır.)

Bəhruz anadan olanda sevindim və rəhmətlik babamın adını qoydum. Arvadımın arzusu ilə onun babası rəhmətlik Şamil bəyin də adını, tifilin qulağına çağırdıq.

(O, yenə də siqaretinə qullab vuraraq öz- özünə danışmağını davam edir.)

Anası Əzizənin ruhu şad olsun deyə uşağı Molla Talıbın yanına qoydum ki, Quran oxumağı bilsin. Mən əli qurumuş isə hirslənib yuxulu uşağı sillələdim...

(Şirəli bəy dərindən köks ötürərək, iki əlləri ilə başından tutub doluxsunur.)

Qorxudan uşağın qulaqları tutuldu. Üstəlik dili də lal oldu. Yaxşı ki, Allahın köməyi ilə qulağının biri ilə dili də danışdı. Tifili şəhərdəki rus-tatar məktəbinə oxumağa

qoydum...

(Şirəli bəy qeyzlə ayağa qalxıb və darvazaya tərəf addımlayır. Əlini cəftəyə atanda üz-gözünü turşudaraq ucadan asqırır.)

Həəppçi.., lənət şeytana, bu tək səbir haradan peyda oldu?

Bir az oturum görüm başıma nə gəlir.

(O, qayıdaraq əvvəlki yerində əyləşir. Əlini cibinə salıb alışqanla siqar qabını çıxarır. Bir siqar ağzına qoyaraq yandırır.)

Allah, Bəhruzumu mənə göz dağı verdi. Yaxşı ki, məktəbdə müəllimləri Varvara xanımla Məmmədhüseyin ağa oğlumdan razılıq edirlər. Təkcə şəriət dərsi verən Molla Əli Bəhruzdan gileylidir ki, onun karikaturasını çəkib uşaqlara güldürür.

(Şirəli bəy qalxıb getmək istərkən üzünü zala tərəf tutaraq nəyi isə yada salır.)

Allah yaxşı adamları, behiştlik eləsin! Arvadın qohumu Eynulla bəyin məsləhəti ilə Bəhruzu Tiflisə oxumağa göndərdim. Orada Mirzə Cəlilin "Molla Nəsrəddin" çiləri ilə tanış olaraq oxuyub rəssam oldu.

(Şirəli bəy gülə-gülə gəlib alça ağacının yanında durur.)

Bu ağacın tingini Bəhruz anadan olanda əkmişəm. Kaş ki, ona toy edib nəvəmə də belə bir ting əkərdim...

(O, iki əlləri ilə başını tutaraq fikrə gedir.)

Tifili teatra işə götürsələr də, yazıq neçə vaxtdır ki, vərəmləyərək cılızlaşmışdır. Feldşer Mirzə Əli kirvə kimi oğluma əlindən gələni edir. Bacıları Tahirə ilə Mənsurə də onun halına yanırlar. Analığı da elə Bəhruza doğma anadan artıq xidmət göstərir. Eh, lənətə gəlsin belə güzəranı.

(Həyətdəki darvaza qapısı açılır. Bəhruz, başında Tiflisdən aldığı beretlə nimdaş qış paltarında, öskürə-öskürə əlində rəng qutusu ilə qoltuğunda kağız qovluğu həyətə girir. Şirəli bəy nədənsə oğlunu görəndə ağacın arxasında gizlənmək istəyir.)

Bəhruz: (Təbəssümlə) Ata sənsən, məndən gizlənirsən? Bacılarım Tahirə ilə Mənsurə haradadır?

Şirəli bəy: (Gizləndiyi yerdən çıxır). Ay oğul elə azan vaxtına az qalır istədim ki, burada dəstəmaz alıb namaz qılam. Ananla bacıların da deyəsən evdə yoxdur.

Bəhruz: (Həyacanla) Ata bu nə görkəmdir, özünü niyə bu kökə salmısan, bəs sənin saqqalın hanı?

Şirəli bəy: Oğul Bəhruz, gəl dərdimi təzələmə. Bu zamanın hökmüdür. Onsuz da mənə dəyən "təpik" dəymişdir. (Bəhruz atasının kədərləndiyini görüb onu incitdiyinə görə peşman olur. Əlindəkilərimizin üstünə qoyur.)

Bəhruz: Ata, təzə çəkdiyim şəkillərə baxmaq istəyirsənmi?

Şirəli bəy: Əlbətdə, gətir bir baxım. (Bəhruz öskürə-öskürə soyuqdan donmuş əllərini nəfəsi ilə istidərək, qovluğu atasına verir.)

Bəhruz: Ata əvvəlcə qovluğun üstünü oxu, sonra içindəkilərə bax.

Şirəli bəy: (Qovluğun üzərindəki sözləri oxuyur.) "Naxçıvan yadigarları." Maşallah! Bəh-bəh-bəh! Çox gözəl, (qovluğu açır) baxım görüm burada nə şəkillər çəkmisən?

Bəhruz: (Bir-bir rəsmləri göstərərək izah edir.) Ata, bunlar şəhərimizin mənzərələridir. Bu, Nuh peyqəmbərin qəbiridir. Bu da ki, İlan dağıdır...

Şirəli bəy: Oğul Bəhruz, hələ mənim ata babam ikinci Kalbalı xan söyləmişdir ki, dünyanı su basanda Nuh peyqəmbərin gəmisi üzərək, gəlib Naxçıvan dağlarında dayanmışdır. Bu sözləri rəhmətlik baban Murtuz bəy də demişdir.

Bəhruz: Ata, düz söyləyirsən. Mən Tiflisdə oxuyanda rəssam dostum Şmerlinq deyərdi ki, müqəddəs kitablarda yazılmışdır ki, dünya tufanından sonra Noy peyqəmbərin gəmisi üzüb Cudi dağında dayanmışdır.

Şirəli bəy: Oğul yəqin ki, sənin rəssam dostun dediyi Noy, elə bizim bildiyimiz Nuh peyqəmbərdir. Dediyi Cudi dağı da Tivi kəndi yaxınlığındakı Qapıcudi dağıdır. Deyilənə görə oradakı daşlar üzərində qədimdən qalma yazılar da vardır.

Bəhruz: Ata orasını bilmirəm, ancaq məktəb müəllimim Molla Əli Hüseynzadə danışardı kı, bir zamanlar hansısa peyqəmbəri Naxçıvanda dəfn etmişlər.

Şirəli bəy: Molla Əlinin dedikləri yəqin ki, şəhər qəbiristanlığının yanındakı pir yeridir.

Bəhruz: Elə buna görə də "Köhnə qala"nın yanındakı peyqəmbər qəbirinin şəkilini çəkdim. (Bəhruz çəkdiyi rəsmləri bir-bir göstərir.) Ata bu şəkil məhəlləmizdəki qaçqın uşaqlardır. Yazıqları, ermənilər ata-baba torpaqlarından qovublar və Naxçıvana pənah gətiriblər.

Şirəli bəy: (Bir az fikirləşib və xəcalətlə) Oğul Bəhruz, bir azcana pula ehtiyacım vardır. De görüm teatra çəkdiyin Marksla Engelsin portretlərinə zəhmət haqqı verdilərmi?

Bəhruz: (Qeyzlənərək) Ata, onlar hələ qalsın sonraya, komissar Bahadur bəyin tapşırığı ilə qadınlar klubunun müdürəsi Cənnət xanımdan, şəkillərimə satdığı lotereya pulunu da ala bilməmişəm.

Şirəli bəy: Niyə ay oğul? Bəs deyirdin ki, Qaçqınlar komitəsinin möhürü ilə təsdiq olunmuş lotereya biletlərindən yaxşı qazanc olacaqdır.

Bəhruz: Orası elədir ata, ancaq deyəsən qadınlar klubunun müdürəsi, arvadda olsa fırıldaqdır.

Şirəli bəy: Nədən bilirsən ki, o qadın əyridir. Məgər Bahadur bəy özü bu işi ona tapşırmayıb?

Bəhruz: Orası elədir, lotereya biletlərini hətta İrəvan şəhərinədək göndərərək satdırmışdır.

Şirəli bəy: Bəs bu işin sonrası necə olub ki, sənə çatası pulu ödəməyiblər?

Bəhruz: Ata, lotereya oyunu qurtardıqdan sonra yığılmış pullar, Cənnət xanım Talıbzadə ilə Sosial Təminat Şöbəsi arasında "qeybə çıxmışdır."

Şirəli bəy: Bütün bu işlərin axırı necə qurtaracaq, məgər dərəbəylikdir? Sən bütün bu işlərə görə yuxarılara şikayət etməmisən?

Bəhruz: Bəli ata! Bu barədə Azərbaycan Xalq Komissarı Əliheydər Qarayev yoldaşa şikayət ərizəsi yazıb göndərmişəm.

Şirəli bəy: Yəqin ki, Bakıdan sənin bu müşkül işinə tutarlı əncam çəkərlər.

Bəhruz: Nə bilim, Allah bilən yaxşıdır. Mənim bəxtim onsuzda qaradır. Bir tərəfdən də, klub müdürəsi heç kəsə demədən Bakıya köçmüşdür. İndi neçə vaxtdır ki, mənim şikayətimə baxmırlar. Bu da tərifladikləri təzə "xalq" hökuməti.

Şirəli bəy: (Qorxa-qorxa ətrafa baxa-baxa) Sus ay oğul, eşidən olar, başımız cəngələ düşər. Hökumət adamları ilə bir az ehtiyatlı ol. Axı Bahadur Vəlibəyov sənin satış sərginin açılmasında köməklik etmişdir. (O, bir anlığa üzünü yerə yutaraq fikrə gedir.)

Bəhruz: Orası elədir ata, ancaq mənim bu şikayətimdə pis niyyət yoxdur. Haqqımı tələb edirəm. Çəkdiyim işlərin... (Susaraq göyə baxır.)

Şirəli bəy: Nə isə, Allah kərimdir. Darıxma, səbr elə hər şey düzələr. Sənin cox gözəl rəsmlərin vardır. Bu şəkillər şəhərdəki erməni Arakelin fotolarından yaxşıdır.

Bəhruz: Ata, bütün bunlar (rəsmləri göstərir) xalqımızın sənət tarixində qalacaqdır. Erməni daşnak Andranikin soydaşlarımızın yurd yerlərindən qovulmaları hamıya bəllidir. Ermənilər torpaqlarımızı ələ keçirərək xalqımızı qaçqın etmişdir.

Şirəli bəy: Oğul elədir ki var. Bütün bunlar xalqımızın başına gətirilən əzablı günlərdir.

Bəhruz: (Rəsmlərini göstərə-göstərə) Ata payızda çəkdiyim bu rəsm işi "Əliyabad kəndinə gedən yol"dur. Bu da ki,"Bədirlənmiş aylı gecə"dir ki, həmin mənzərəni çəkəndən sonra sətəlcəm olub xəstələndim.

Şirəli bəy: Bəhruz, "Bədirlənmiş aylı gecə" sənin sağlamlığını təhlükəyə saldı. Səndən ötrü neçə gün Mirzə Əli kirvən yorulub əldən düşdü. (Şirəli bəy diqqətlə oğluna baxıb onu gözdən keçirir.)

Bəhruz: (Öskürə-öskürə) Ata, hamınız sağ olun, kirvəm Mirzə Əli də sağ olsun. Ancaq, bir söz var,-"yazıya, pozu yoxdur."

Şirəli bəy: De görüm bu gün səhər süd içmisən? (Şirəli bəy əlini sinəsinə qoyaraq başı gicəlir. Bəhruz tələsik rəsmləri mizin üstünə tullayaraq atasının qolundan yapışıb və onu güclə saxlayır.)

Bəhruz: Ata sənə nə oldu? Ana, Tahirə, Mənsurə haradasınız köməyə gəlin. (Evdən səs gəlmir) Ata, evdə "Qızlar bulağı"nın suyundan qalır, gətirim içkinən.

Şirəli bəy: (Kətilin üstündə oturur) Yox ay bala, lazım deyil. Rəhmətlik Əzizə anan yadıma düşdü. Dünən gecə yuxuda səndən yana darıxıb və yanına aparmağa gəldiyini gördüm... (Qorxaraq əlini ağzına aparıb və oğluna diqqətlə baxır.) Gərək Molla Talıba deyəm cümə axşamı "Yasın" oxusun.

Bəhruz: (Gözləri doluxsunaraq) Kaş ki, anam yaşayardı, əvəzində mən ölərdim. Sizlərə də bu qədər yük olmazdım.

Şirəli bəy: Elə demə ay oğul. Bu nə sözdür Hətərən-pətərən danışırsan. Bir sözdü də, bilmədim danışdım. Yuxudur da... Allah ananın ruhuna rəhmət eləsin! Ay oğul deginən Amin! (Arada sakitlik olur.)

Bəhruz: Ata, Nuh peyqəmbərin qəbrinin şəklini çəkməyə gedərkən, yolumu qəbiristandan saldım. Orada anamın da qəbrini görüb, üstünü təmizlədim. (Şirəli bəy

əlini cibinə salıb, siqar qabı ilə alışqanını çıxardı. Siqaret yandıraraq tüstüsünü yana üflədi və üzünü Bəhruza tutaraq ciddi görkəm aldı.)

Şirəli bəy: Oğul Bəhruz, çoxdandır ki, sənə bir söz demək istəyirdim. Qəbiristanlığın yanında "Köhnə qala"nın aşağısında İmamzadə deyilən bir qədim tikili vardır. Həmin binanı görmüsənmi?

Bəhruz: Bəli ata görmüşəm, yanında da soğana bənzər qədim türbə vardır. Görəsən kimindir?

Şirəli bəy: Düz deyirsən, İmamzadənin yanında qədim türbə də vardır. Deyirlər ki, ora Nuh peyqəmbərin varislərinin məzar yeridir.

Bəhruz: Ata yuxarıdakı səkkiz guşəli qədim tikili də vardır. Ora Nuh peyqəmbərin qəbir yeridir?

Şirəli bəy: Görmədiyimi deyə bilmərəm. Ancaq rəhmətlik babamdan eşitmişdim ki, ərəblər Naxçıvana gələndə həmin yerin nə olduğunu soruşurlar. Onlar qəbir yerinin müqəddəs olduğunu eşitcək, orada həmin tikilini hördürmüşlər. Doğrusunu isə Allah bilir!

Bəhruz: Ata, demək ora müqəddəs qəbir yeridir?

Şirəli bəy: Oğul qəbirə müqəddəs deməyin özü də günahdır. Ərəbistana hacc ziyarətinə gedənlərdən eşitmişəm ki, Həzrət Məhəmməd (s.ə.s.) peyqəmbərin özü sağlığında demişdir ki, qəbirləri müqəddəs bilmək Allaha qarşı çıxmaq kimi bir şeydir.

Bəhruz: Ata onda bəs ərəblər niyə buradakı qəbirin üstündə səkkiz guşəli "sərdabə" tikmişlər?

Şirəli bəy: Ay oğul sənə vacib söz demək istəyirəm, məni çətin suallarla çaşdırırsan. Bir dayan gör sənə nə deyirəm.

Bəhruz: (Utanaraq başını aşağa salır) Bağışla ata, səni çətinliyə saldım. Bu dünyanın işləri çox qəribədir. Tariximizi də doğru-düzgün yazmamışlar ki, barı oxuyub öyrənək.

Şirəli bəy: Düz deyirsən bala, nə qədər ki bu millətin tarixini uruslar, ermənilər, farslar, nə bilim hansı əcnəbilər yazıblar, hamısı saxta və sifarişlə yazılmışdır.

Bəhruz: Ata məgər bizim millətdə elə bir doğruçu alimlər olmamışdır?

Şirəli bəy: Niyə ki, olmuş və indidə vardır. Elə götürək adını eşitdiyim Nəsirəddin Tusi, Marağalı Əhvədi, Nəsimi, Füzuli, Nizami, Xaqani... (Bir az sözünə ara verir.) Alimlərimizin adları çoxdur. Ancaq onların yazdıqları tarixləri zaman-zaman bilərəkdən saxtalaşdırmışlar.

Bəhruz: Ata mən Tiflisdə oxuyanda Abbasquluağa Bakıxanovun da adını eşitmişdim. Görəsən o, kim olmuşdur?

Şirəli bəy: Hə oğul, o da bir vaxtlar mənim kimi rus çar ordusunda xidmət etmişdir. Lakin eşitdiyimə görə o, tariximiz haqqında uşaqlara xeyirli nəsihət kitablarını yazmışdır.

Bəhruz: Ata demək bizim xalqımız qədim zamanlardan elmə, sənətə və mədəniyyətə malik olmuş.

Şirəli bəy: Əlbətdə. (sözünü saxlayıb fikrə gedir) Bir dayan gör sənə nə deyirəm. İmamzadanın yanında bizim tayfadan ölənlərin qəbirləri vardır. Orada anan, baba və nənələrin məzarları da olmalıdır. Hətta rəhmətlik Mirzə Sidqinin də qəbiri oradadır.

Bəhruz: Hə, ata həmin qəbiri görmüşəm. (Şirəli bəy bir az sözünə ara verərək, əlini Bəhruzun çiyninə qoyub pıçıltı ilə deyir.)

Şirəli bəy: Oğul, orada üstü kümbəzvari qədim qəbir yeri də vardır. Ehsan xan deyərdi ki, Məhəmməd Qacar şah, babamız Birinci Kalbalı xanın gözünü çıxartdırmışdır. Nə var nə yox ki, Nuh peyqəmbərin qəbirinin Naxçıvanda olmasını demişdir. (Şirəli bəy ah çəkərək öz-özünə lənət oxuyur.) İran şahı xacə Qacar, xalqımızın mənliyinə toxunmuş, xalası göyçək ziyalılarımızın bəziləri isə qəddar Nadiri də Qacarı da və başqalarını Azəri türklərinin ulu babası kimi yazırlar. Görüm tariximizi saxtalaşdıranlar lənətə gəlsinlər. (Şirəli bəy əsəbləşərək sözünə ara verir) Eşitdiyimə görə Nuh peyqəmbərin oğlu Yafəsin də məzarı Sarı dağın ətəyində, anasınınkı isə Sarbanlar məhəlləsindəki köhnə qəbiristandadır.

Bəhruz: Ata, (öskürərək) günü sabah tezdən gedib həmin türbələrin şəkillərini çəkəciyəm.

Şirəli bəy: Oğul bir az ehtiyatlı ol. Təzə hökumət deyəsən dinsiz-imansızların tərəfini saxlayacaq. Görmədin ki, urus əsgərləri atlarına tövlə tikmək bəhanəsi ilə tarixi Cümə və Şahabla Sarbanlar məhlə məscidlərini sökdürüb və bişmiş kərpiclərini apardılar.

Bəhruz: Sən heç də darıxma ata, Allah bizimlədir.

Şirəli bəy: Ay oğul, məsləhət görürəm ki, Nuh peyqəmbərin özünün də şəkilini çəkəsən. Zaman dəyişilər çəkdiyin şəkillər səni şöhrətləndirər.

Bəhruz: (Öskürə- öskürə) Ata, deyirsən ki, peyqəmbərin də şəklini çəkim, bəs üzdən kimə oxşasın?

Şirəli bəy: (Gülümsəyərək əlini oğlunun çiyninə qoyur) Sifətdən deyəndə ki, saçlı-saqqallı nurani bir qoca olsun. Deyirlər ki, Nuh peyqəmbər dünyada doqquz yüz ildən çox yaşamışdır. İstəyirsən elə baban Murtuz bəyin evdəki foto şəklinə bax, ona oxşasın. Daha burada nə pis şey vardır.

Bəhruz: (Gülümsəyərək başını aşağa salır) Ata çalışaram peyqəmbərin portretini çəkəndə heç kəsə oxşamasın... (Darvaza qapısı döyülür, tak, tak, tak.)

Şirəli bəy: Kimdir qapını döyən? Darvaza qapısı açıqdır, girin həyətə. (Bir qadın yamaqlı nimdaş paltarda, çiynində torba qapıdan həyətə gəlir.)

Gülsüm: Salamun əleykum ay ev yiyəsi!

Şirəli bəy: Ay, əleykə salam!

Gülsüm: Ay ev yiyəsi, Allah rizasına qaçqınlara kömək edin, dünəndən bəri acam. (Şirəli bəy məyus halda əlini çənəsinə aparıb tələsik soruşur.)

Şirəli bəy: Bacı, adın nədir, hansı eldənsən?

Gülsüm: Adım Gülsümdür, Göyçə mahalının Böyük Vedi tərəfdən Avşar kəndindənəm. Allah erməni dığası qulağı kəsik Andranikə lənət eləsin! Ata-baba yurdumuzdan bizləri qovub, qaçqın olmuşuq. Neçə ildir ki, Naxçıvanda dilənçiliklə gün keçiririk.

Şirəli bəy: Bacı dedin ki, Böyük Vedi tərəfdənsən. Onda, Abbasqulu bəyi tanıyırsanmı?

Gülsüm: Əlbətdə, görüm onu yüz yaşasın! Abbasqulu bəy qonşu Şadıllı kəndindəndir.

Şirəli bəy: Onun sayəsində Naxçıvan camaatı qurtuluş tapdı. Azğın ermənilər onun "qırmızı tabor"çuları tərəfindən Naxcıvan çökəyindən qovulmuş. Ancaq yeni Firqə hökuməti bəyin fədakarlığına heç sağ ol da demədi.

Gülsüm: Deyirlər ki, İrəvanda, Zəngəzurda və başqa yerlərdə Andranikin dostu "Yapon" taxtabaşla birlikdə, oradakı təzə urus hökumətinə basqın edərək şura hayastanı yıxmaq istəmişdir. (Öskürə-öskürə söhbətə qulaq verən Bəhruz atasına tərəf çevrilir.)

Bəhruz: Ata, sağ olsun Osmanlı türklərini. 1918-20- ci illərdəNaxçıvanda Araz-Türk hökuməti yaradılanda, Amerika-İngilis əsgərlərinə qarşı Kazım Qarabəkir Paşanın silahdaşı olan Türk əfəndini də Allah qorusun! Türklər naxçıvanlı könüllülərlə birlikdə, Naxçıvanı tutmaq istəyən düşmənləri geri qovdular.

Şirəli bəy: Yadındamı ay Bəhruz, onda ermənilər gəlib şəhərin təslim olmasına ultimatum yazmışlar. Əlixan Kəngərlinin sözü ilə sən də həmin kağızın arxasında Andraniki tayqulaq ulağa bənzətmişdin. (Hər ikisi gülüşürlər.)

Gülsüm: Ay qardaş, yaşadıq-yaşadıq yamanca günlərə gəlib çatdıq...

Şirəli bəy: Ay bacı, xalqımız tarix boyu dəfələrlə belə əzablı günlər görmüş, torpaqlarımız əldən-ələ düşmüşdür. Səlcuqlar, rumlular, ərəblər, monqollar, farslar, uruslar nəbilim kimlər-kimlər torpaqlarımızda at oynatmışlar. İdi də deyəsən imansız bolşeviklərə tuş olmuşuq.

Gülsüm: Nə bilim ey, ay qardaş. Mən bisavad bir qadınam. Allah özü biləndir...

Şirəli bəy: (Bəhruza dönərək) Ay oğul qonağı apar evə. Sobanı yandır, Gülsüm bacıya hörmət göstər ki, Allaha xoş gəlsin.

Bəhruz: (Evə tərəf çağırır) Ana, Mənsurə, Tahirə qonağımız var, həyətə çıxın.

Şirəli bəy: Nahaq çağırırsan, bayaq dedim axı onlar evdə yoxdur. Hamama gediblər, axı bu gün arvadların günüdür. Darıxma, indi gələrlər. (Darvaza qapısı açılır, cadraya bürünmüş, qoltuğunda boxça ilə Şirinay, qızları Tahirə ilə Mənsurə həyətə girirlər.)

Şirinay: Salamun əleykum! Bəhruzda gəlib çıxıb, yəqin ki, səhərdən acdır. Bağışla bizi ay Şirəli bir az yubanmışıq.

Şirəli bəy: Ay Şirin, görmürsən ki, qonağımız da var. Bəhruzda bayaqdan gəlib deyəsən yenə də soyuqlayıb elə hey öskürür. Hava soyuqdur, sobanı qalayın, çay dəmləyin, yemək tədarükü görün. Mən də dəstəmaz alıb gəlirəm. (Tahirə ilə Mənsurə ağacın yanındakı doğranmış odunlardan götürub evə aparırlar. Onların ardınca Şırinay, Gülsüm və Bəhruz evə girirlər.)

Şirəli bəy: (Üzünü zala tutaraq) Deyəsən mənimdə işlərim yaxşı olmayacaq. (Bır az fikirləşir) Dostum Mirzalı bəyin sözlərindən sonra elə bil ki, canıma birə daraşıb. Təzə hökumət köhnə mülkədarlara qənim kəsiləcək...

Şirinay: (Evdən səsi gəlir.) Ay kişi, ay Şirəli tez ol gəl, sobanı yandırdıq, təzə çay dəmdədir.

Şirəli bəy: Yaxşı, yaxşı gəlirəm. (Yerə çömələrək saxsı lüleyinlə əl-üzünə su vuraraq, dəstəmaz alır. Sonra ayağa duraraq əllərini göyə qaldırıb dua edir.) Allah, bizləri bu əzablı günlərdən qurtar! Amin!

(1-Cİ PƏRDƏNİN SONU.)

ÜÇÜNCÜ HİSSƏ

2-ci pərdə

Şirəli bəyin evi. Otağın üç tərəf "divarları" səhnədə qurulmuşdur. Sağ "divar"da iki tağlı qapı vardır. Qapının yanında küncdə ayaqüstü paltarasan qoyulmuş. Orta "divar"da çərçivəli kişi foto şəkilləri ilə yan-yana mənzərə tablosu asılmışdır. Sol "divar"da dəmir çarpayının yanında kitab rəfi vardır. Həmin divardakı pəncərənin yanında yerdə üçayaqlı molbert dəzgahının üzərində üzü pəncərəyə tərəf, kətan (xolst) çəkilmiş çərçivə. Otağın ortasında yumru miz ilə əyməbaşlı kətillər qoyulmuş. Çarpayının qarşısındakı döşəmədə köhnə palaz sərilmişdir. (Bəhruz öskürə-öskürə dəzgahın qarşısında dayanıb, əlində fırça tutaraq şəkil çəkir.)

Bəhruz: Ay Allah sənə şükür olsun! Mənin taleyimi necə də uğursuz yazdın. Bir tərəfdən kasıbçılıq, bir tərəfdən sevdiyim Nazlının başqasına ərə verilməsi, bir tərəfdən də "Naxçıvan çaparı Məcid"ın şəklini tamamlaya... (Bəhruz kəskin surətdə öskürməyə başlayır, əlindəkiləri dəzgahın üstünə tullayaraq çarpayının üstünə uzanır. Qapıdan bacısı Tahirə əlində bardaqla su parçı içəri girir.)

Tahirə: Bıy, can qardaş, sənə canım qurban. Yenə də o zəhrimar öskürək səni boğdu ki, al sənə süd gətirmişəm. (Südü Bardaqdan parça süzərək Bəhruza uzadır.)

Bəhruz: (Öskürə-öskürə) İstəmirəm ay bacı. Artıq mənimki mənə dəyib, südün xeyri olmayacaq. Onsuzda Mənsurə bacımız zəifdir yaxşı olar ki, südü ona içirdəsən.

Tahirə: Sənə gələn qada mənə gəlsin ay qardaş. İndi gedim anamla Mənsurəni də çağırım gəlsinlər.

Bəhruz: (Öskürə- öskürə) Onlar bu soyuq havada hara gediblər?

Tahirə: Bilirsən Bəhruz, qardaşım. Dünən atam ilə anamın danışdıqlarını eşitdim. Qonşumuzun qızı Hürnisə var ha, səndən yana dəli-divanədir. Odur ki, atam istəyir o qızı sənə arvad alsın.

Bəhruz: Sən nə boş-boş danışırsan ay bacı (öskürür).

Tahirə: Elə nə deyirəm, düz deyirəm. Anam dedib Hürnisə gilə söz almağa Mənsurə də oradadır.

Bəhruz: (Öskürə-öskürə) Sən nə hətərən-pətərən sözlər danışırsan. Kim evlənir, kim ərə gedir? Məni deyirsənsə, evlənmək fikrində deyiləm. Gözləyirəm hökumətdən pulumu alım, bir baş Tiflisə gedəcəyəm. İstəsən sənidə ora apararam.

Tahirə: Xeyir mən heç yerə getmirəm. Səni də bir daha Naxçıvandan kənara buraxmarıq. Teatrın müdüridir nədir o, Riza bəy sənin sənətini atama tərifləyib. Hələ atam deyir di ki, Maarif komissarı Rüstəmovdur nədir o, səni orada işə götürüb. İnşəAllah sağalarsan təzə işivə başlarsan.

Bəhruz: (Öskürə-öskürə) Bacı onu mən də bilirəm. Ancaq mən daha işləyə bilmərəm. Artıq məninki mənə dəyib, özüm yaxşı bilirəm.

Tahirə: Yox, sən nə danışırsan ay qardaş. Allah qoysa Novruz bayramından sonra sənin toyunu edəcəyik... (Tahirə əlindəki bardaqla parçı stolun üstünə qoyub və oynamağa başladı. Qardaşının əllərindən tutaraq onu oynatmaq isdədikdə Bəhruz, kəskin surətdə öskürməyə başladı. O, cib dəsmalını ağzına tutub öskürəndə, Tahirə qana bulaşmış dəsmalı görən kimi qorxudan bağırdı.)

Bəhruz: (Oöskürə-öskürə) Gördün bacı daha mənimki mənə...(Kəskin surətdə öskürür.)

Tahirə: Ay zavallı qardaş, bu nədir? (Qorxub çığırır.) Ana, ay ana! (Tahirə qışqıra-qışqıra otaqdan çıxır. Bir neçə dəqiqədən sonra Şirinay, Tahirə və Mənsurə tələsik otağa girirlər.)

Şirinay: (Bəhruzun çarpayısı yanında dizi üstə yerə oturur.) Ay oğul, sənə nə oldu? Mən bəxtəvər də bayaqdan bəri Hürnisəgildə mırt vururam.

Mənsurə: (Qardaşının telini tumarlayır.) Canım qardaş Bəhruz, sənə nə oldu? Sənə gələn qada- bəla mənə gəlsin. (Hıçqıraraq ağlayır.)

Tahirə: Bütün günahlar məndədir. Bayaqdan sobanı yandırıb sənə çay dəmləmək əvəzində, arsız olub çırtma vururam...

Şirinay: Ay qız Tahirə, Mənsurə, görəsən atanız harada itib qaldı, indi biz nə edək? Barı atan kirvə Mizə Əlini tapıb gətirərdi.

Bəhruz: (Öskürə-öskürə) Ana, mənə heç nə olmayıb. Soyuqlamışam, üstümü yorğanla örtün. Başım da gicəlir, gözlərim qaralır. Od tutub yanıram.

Şirinay: Sənə gələn qada mənə mənə gələydi, ay oğul! (Onlar ağlaşırlar.) Bu nə müsibət idi gəldi başımıza. Yazıq kirvə neçə vaxtdır ki, sənə dava-dərman eləyir. Heç xeyri

olmur. (Hönkürərək ağlayır.)

Bəhruz: Ana günah özümdədir. Əgər o lənətə gəlmiş “Ay işığında...” (öskürür) çəkməsəydim (öskürür), indi belə günə düşməzdim. Görünür taleyin hökmü belədir.

Tahirə: (Ağlaya-ağlaya) Sənə qurban olum ay qardaş! (Otağa qapıdan Şirəli bəylə feldşer Mirzə əli Abbasov daxil olurlar.)

Şirinay: Ay rəhmətliyin oğlu, harada itib-batmısan. Görmürsən ki, oğlumuz dünəndən bəri özünü bilmir... Mənsurə ilə təzəcə elə qonşuya getmişdik, Tahirə dalımızca gəldi ki, Bəhruzun vəziyyəti xarabdır. (Ağzını yaylığı ilə yaşmaqlayır.) Bağışla ay kirvə lap özümü itirdim, salamlaşmadım. Necəsiniz, evdə xanım necədir?

Mirzə Əli: Ay əlekə salam ay kirvədostu. Sağ ol xanım da yaxşıdır, uşaqlar da. Elə hamımız Bəhruz üçün nigaranıq.

Şirəli bəy: Elə mən də səhərdən getmişdim Mirzə Əlinin dalınca. Axırda onu tapıb özümlə gətirdim evə. (Bəhruz kəskin öskürəklə boğulmaq həddinə çatır.)

Mirzə Əli: (Əlindəki çantasını açıb tələsik içərisindən tütək şəkilli fonodeskopu götürüb, bir ucunu qulağına, o biri ucunu isə xəstənin kürəyinə dayayır.) Sakit olun, səs salmayın! Nəfəs al görüm, bir də, bir də. Hə indi uzan yerinə (üzünü Şirəli bəyə tutaraq). Kirvə, dünən dediyimi elədinmi?

Şirəli bəy: (Duruxaraq nə deyəcəyinə fikirləşir.) Hə, hə yadıma düşdü. Demişdin ki, qəssab dükanından kəlləpaça alım, xaş bişirək və suyundan da Bəhruza içirək.

Şırinay: Ay kişi, bəs nə oldu, niyə bəs kirvənin dediyini alıb gətirmədin? (Üzünü Mirzə Əliyə tərəf tutur.) Ay kirvə, bu kişi elə səhər evdən çıxar, axşam qayıdar.

Şirəli bəy: (Sıxıla-sıxıla) Almağına aldım dediyini, ancaq elə ki, bazardan çıxmaq istərkən, dilənçi qaçqınlardan birisi yalvararaq məndən pul istədi. Düzü ona yazığım gəldi, göyə baxdım, yerə baxdım qəssabdan nisyə aldığım kəlləpaçanı da ona verdim.

Şirinay: (Əllərini dizlərinə çırparaq hirslənir.) Bəxtəvər başımıza, oğlumuz evdə əldən gedir. Nisyə aldığı kəlləpaçanı da dilənçilərə paylayırsan, indi sənə nə deyək?

Mirzə Əli: Yaxşı-yaxşı ay kirvədostu evdə xəstənin yanında dava salmayın. İndi mən Bəhruza bir dərman hazırlayıb verərəm öskürəyi kəsər. Deyin görüm evdə tut doşabı ilə qurudulmuş kəklik otu varmı? (Tahirə ilə Mənsurə tələsik evin qapısından çıxırlar. Onların ardınca Şirinay da gedir.)

Bəhruz: (Öskürə-öskürə) Kirvə, çox sağ ol ki, neçə vaxtdır məni müalicə edirsən. Ancaq nə etmək olar, Allahın hökmüdür bütün bunlar. Görünür ki, Allah qarşısında günahkaram.

Mirzə Əli: Ay Bəhruz, sən niyə günahkar olursan? (Bir az sözünə ara verir.) Günahkar erməni dığalarıdır ki, xalqımızı neçə ildir ki, əzablı günlərə salmışlar. Təzə hökumətin bolşevikləri də onlara himayədarlıq edirlər.

Bəhruz: (Öskürə-öskürə) Ata, məni halal edin!

Şirəli bəy: (Özünü saxlaya bilməyib doluxsunur.) Ay bala bu nə sözdür dilinə gətirirsən? (Gözlərini cib dəsmalı ilə silir.) İnşəAllah sən sağalacaqsan. Hələ teatrımızda neçə-neçə tamaşalara tərtibat verəcəksən. (O, sözlərinə bir qədər ara verir.) Maarif komissarı yoldaş Rüstəmov səni təzə işə götürmüş. Gözləyir ki, tezliklə sağalasan. Ərzaq komissarlığından da Mehdi bəy Hacınski söz verib ki, sənin üçün ərzaq yardımı eləsin. Yəqin ki, bəyin sözləri doğru olar inşəAllah!

Bəhruz: Ata, (kəskin öskürək onu boğur,) bu şəkili görürsən (əli ilə dəzgahı göstərir) o, "Naxçıvan çaparı Məcid"in at üstündəki şəkilidir. Ancaq heyif ki, çəkdiyim şəkil yarımçıq qalıb, onu başa çatdıra bilmədim. Məcidi də daha görmürəm. Görəsən yazığın başında bir iş... (Öskürək kəskinləşir, əlindəki dəsmalını ağzına tutanda qandan qızarır.)

Mirzə Əli: (Qanlı dəsmala baxaraq başın bulayır və Şirəli bəyin qolundan tutub onu pəncərəyə tərəf çəkir.) Bəy, Bəhruzun vəziyyəti çox pisdir. Bayaq uşaqların yanında demədim, bilmirəm sənə necə deyim. Ancaq onu bil ki, mən əlimdən gələni elədim. Onun vərəmli xəstəliyi qorxuludur, ciyəri tamam xarab olubdur. Yaxşı olar ki, uşaqlar ondan uzaq olsunlar...(O, Şirəli bəyi qucaqlayaraq hönkürür.)

Şirəli bəy: Ay kirvə sən məni də kövrəltdin. Allah atana rəhmət eləsin! İndi mən hər şeyi anladım. Sənin də yanında xəcalətəm, indiyənədək Bəhruzdan ötəri çox iş görmüsən... (Şirinay, Tahirə və Mənsurə əllərində bağlama qapıdan otağa girirlər.)

Şirinay: Ay kirvə, bayaq dediklərini qonşulardan tapıb gətirdik.

Bəhruz: (Kəskin öskürəklə azacıq başını qaldırır.) Ana, Bacılarım, məni halal edin, daha heç nəyə ehtiyac yoxdur. Onsuz da kirvəmiz Mizə Əlinin atama dediklərini eşitdim.

Şirəli bəy: Oğul məgər kirvə bir söz dedi?

Bəhruz: Mən,...(öskürərək) ölürəm. Qəbrimi Nuh peyqəmbərin qəbirinin yanında qazarsınız. Bəlkə onun duası ilə o dünyada... (öskürür) Allah günahımdan keçə,... (Kəskin surətdə öskürərək çarpayıya düşür.)

Şirinay: (Əlindəkini tullayaraq Bəhruzun yatağına sarılır.) Sənə qurban olum, ay Bəhruz. (Hönkürərək ucadan ağlayır, Tahirə ilə Mənsurə də çarpayıda sakit uzanmış Bəhruzu qucaqlayaraq ağlaşırlar.)

Şirəli bəy: (Üzünü zala tutaraq) Allah bu nə dərddir, bu nə bəladır? Əzablı günlər bizə qismət oldu. (Əllərini sinəsində çarpazlayaraq çevrilir.) Oğul, Bəhruz! Səsin niyə kəsildi, yoxsa səni Allah mənə çox gördü? (Mirzə Əli şeylərini əl çantasına yığaraq bağlayır, sonra əlini Şirəli bəyin çiyninə qoyur.)

Mirzə Əli: Başın sağ olsun kirvə! (Məhəllə məscidi minarəsindən azan səsi ətrafa yayılır.)

(2-Cİ PƏRDƏNİN SONU.)

SONUNCU HİSSƏ

2-ci şəkil

Uzaqdan Nuh peyqəmbərin səkkiz guşəli türbəsi ilə əzəmətli İlan dağın başı qarlı zirvəsi görünür. Ətrafda alçaq başdaşları olan köhnə qəbirlər vardır. Səhnənin sağ tərəfindən izdihamla tabut gətirlər. (İzdihamın arasından həzin kaman səsi ilə novhə oxunur.)

"Halimə qıl nəzər ey yar binəva gedirəm,

Cəmi dərdim dəvasız binəva gedirəm.

Cahanda kam almadım nakam gedirəm,

Gözləmə yolumu ey zari nətavan gedirəm."

Qarşıda gələn əmmaməli və əba geymiş Molla Talıbın göstərişi ilə adamlar dayanır və tabutu ehmalca yerə qoyurlar. (Molla Talıb tabutun qarşısında əllərini açıb qəbirlərə tərəf durur).

Molla Talıb: Əssəlamu əleykum ey qəbiristan əhli! Əssalamu əleykum alim-üləma, səyyid- səyyidə, varis-bivaris! (Sonra o, Şirəli bəyə tərəf dönür.) Şirəli bəy izin ver mərhumun cənazə namazını qılım.

Şirəli bəy: Bəli qılginən ay Talıb, Allah səndən razı qalsın!

Molla Talıb: Cəmaət, ardımca cərgəyə durun, mən ucadan təkbir deyəndə səsimə səs verin. (O. başmaqlarını çıxarıb sözləri ərəbcə deyərək namaz qılırr.) Əstəğfürullah! Əlləzi la ilahə-illa hüvəl həyyül-qəyyümüzul cəlali vəlikrami və ətubi ilyəh! Bismillahir-Rəhmanir-Rəhim! Əssəlat! Əssalat! Əssəlat! Namaz qılıram bu hazır olan məyyitə, mərhum Bəhruz Şirəli bəy oğlunun Ruhuna qürbətən İlləllah! Allahu əkbər! (Adamlar mollanın dediyi təkbiri təkrarlayılar.) Allah rəhmət eləsin! Ruhu şad olsun! (Molla adamlara tərəf dönür.) Hə, indi cənazəni basdıra bilərsiniz.

Şirəli bəy: Oğul Bəhruz, sən getdin haqqın dərgahına, məni tək qoydun.

Həmid Mahmudov: (Şirəli bəyi ayağa qaldırır.) Şirəli bəy, başın sağ olsun! Allah Bəhruza rəhmət eləsin! Amin! Məni komissar Bahadur Vəlibəyov yoldaş göndərmiş ki, mərhuma Allahdan rəhmət diləyəm və yaxınlarına baş sağlığı verəm. Bir vaxtlar Bəhruz işləyən

teatrda mən də dərnək üzvlərindən biri idim. Bu gün fevralın 7-si, 1922-ci il tarixidir. Artıq Bəhruz cismən bizimlə olmasa da, Ruhu bizimlədir. Mərhumun xidmətləri Naxçıvan teatr tarixində silinməz iz qoymuşdur. Bəhruzun sənətkarlığı onu tanıyanların qəlbində həmişəlik qalacaqdır.

Molla Talıb: Sağ ol oğlum, daha danışmaq vaxtı deyil. Cənazə qəbirə qoyulmalıdır. Ona Quran oxumalıyam...

Şirəli bəy: (Əlini Həmidin çiyninə qoyur.) Sağ ol oğlum! Allah səndən razı qalsın!

Mirzə Əli: (İrəli çıxaraq mollaya tərəf dönür.) Hörmətli Molla Talıb, iki kəlmə söz deməyə izazə istəyirəm.

Molla Talıb: (Narazı halda başını bulayarq öz-özünə deyir;-"Görəsən bu nə çərənləyəcək") Ay oğul, axı vaxt dala qayıtmır. De görək sən nə deyirsən, ancaq qıssa elə.

Mirzə Əli: Camaat, Allah Bəhruza rəhmət eləsin! Mən bir köhnə feldşer kimi mərhuma əlimdən gələni etdim. Ancaq Allah qarşısında hamılıqla acizik. Dünən poçtxananın qarşısından keçirdim ki, gedim rəhmətliyə baş çəkəm. Poçtxanadan mənə Tiflisdən gəlmiş üç məktub verdilər ki, çatdıram tifilə. Dünən başım elə qarışdı ki, məktubları Bəhruza verə bilmədim.

Molla Talıb: Ə, heç bir dediyindən utanırsan? Nə məktub, nə... Tövbə, tövbə, tövbə! Bilmirsən ki, bura qəbiristanlıqdır, nəyə gəlmişik?

Mirzə Əli: Ay Molla Talıb daha niyə məni uşaq kimi danlayırsan, dedim ki, bilməmişəm mərhumun yanında günahkaram ya yox?

Molla Talıb: Canım belə getsə işlərimiz hamılıqla günaha batırıqda.

Şirəli bəy: Kirvə görüm onlar nə məktublardır? (Şirəli bəy bir-bir məktublara baxır.) Hə, bunlar bədbəxt oğluma gəlibdir. Biri Revaz Abasadzedən, o biri isə Mariya Ratiyevadandır. Yəqin ki, hər ikisi də bədbəxtin rəssam dostlarıdır. Bu isə Zibadandır, hər üç məktub Tiflisdən gəlmişdir. Əlqərəz, bunları verərəm evdə uşaqlara, nə isə...

Molla Talıb: Canım abəy, axı vaxt keçir, belə olmaz, sonra Cümə məscidində məni məsxərəyə qoyarlar. (Bu vaxt səhnəyə Mənsurə ağlaya-ağlaya gələrək, əlində tutduğu kiçik mücrünü atasına verir.)

Mənsurə: Atacan, bu mücrünü anam verdi ki,...

Molla Talıb: (Qeyzlənərək) La İlahə İlləllah! Canım bu nə hoqqabazlıqdır? Qızım sən qəbiristanlıqda nə gəzirsən, heç bura sənin yerindir? (Adamlar səs-səsə verərək mollanı səbrli olmağa calışırlar.)

Dəfndəki adamlar: Ay Molla Talıb, bir dayan görək, səbirli ol. Qızın nə günahı vardır. Gətirdiyi mücrünü acın!

Şirəli bəy: (Mücrünün qapağını qaldırır) İçərisindəkilər Cəfərqulu xanın Bəhruza bağışladığı qızıl üzüklə, rəhmətlik Əliqulu Qəmgüsarın verdiyi çərtilməmiş qələmidir.

Mənsurə: Atacan, anam dedi ki. bunları Bəhruzun qəbrinə qoysunlar.

Şirəli bəy: Yaxşı qızım, ananın sözünü yerə salmaram. İndi isə durmadan evimizə qaç.

Molla Talıb: Ay canım mən hələ bu vaxtacan belə ölü basdırmaq görməmişdim. Allah keç günahımdan!

Şirəli bəy: Molla Talıb, Allah atana rəhmət eləsin! Sən bizim məhəllənin ən əziz adamısan, həm də qohumumsan. Sənin sözlərini heç kəs qəribçiliyə sala bilməz. Ancaq izn ver bu vəsiyyəti yerinə yetirim. Bundan ötəri narahat olma, heç yerdə danışmarıq.

Molla Talıb: Axı başıva dönüm abəy, biz müsəlmanıq. Şəriətin hökmünə görə qəbirə ağ kəfəndən başqa heç bir şey qoymazlar.

Şirəli bəy: Molla Talıb daha keçib, günahı mənim boynuma. Kim bilir bəlkə elə bu iş savaba yazılacaq.

Molla Talıb: Mən belə savabı istəmirəm, ancaq günah sənin boynunadır. Di tez olun əzan vaxtıdır, məscidə tələsirəm. (Adamlar tabutu dövrəyə aldılar. Bundan sonra Molla Talıb qoltuğundakı Quranı açıb və uca səslə “Yasin” oxuyur. Səhnənin sol tərəfindən Tahirə, bacısı Mənsurə ilə ağlaya-ağlaya adamların yanına gəlirlər.)

Tahirə: (Ağlaya-ağlaya) Ay ata, haradasan? Bədbəxtlik baş verib, Hürnisə Bəhruzun dərdindən özünə qəsd etmişdir. Aman allah! Bu nə gündür başımıza gəldi.

Molla Talıb: (Oxuduğu Quran ayəsini yarımçıq saxlayır.) Hə indi bildim ki, əzablı günlər nə deməkdir. Ay camahat daha keçibdir, bel-külünc götürün. Bəhruzun qəbirinin yanında bir məzar da qazın. Allah günahlarımızı bagışlasın! Allah Bəhruza da, Hürnisəyə də rəhmət eləsin! Amin! (Bu vaxt şəhərdəki Cümə məscidindən müəzzimin əzan səsi eşidilir.)

(PƏRDƏ SALINIR)

MƏNBƏLƏR

Biblioqrafiya

"ASE", 10 cilddə, V cild, Bakı-1981.

"Naxçıvan Ensiklopediyası", Bakı-2002.

"Unutsaq, unudularıq", "Şərq qapısı" qəzeti, 2001-ci il, № 20.

"Uşaq Ensiklopediyası", 3 cilddə, (2-ci cild), Bakı-1988.

A. Babayev, "Yarımçıq şəkil", (pyes), Bakı-1965.

Ə. Xəlilov, "Naxçıvan teatrının tarixi", Bakı-1964.

F. Bağırov "Nuh yurduna ziyarət", Bakı-2008.

F. Cəfərov, "Bəhruz Kəngərli ömrü", "Sərq qapısı"qəzeti, 2002-ci il, № 160, 163.

K. Kərimov, "Bəhruz Kəngərli", Bakı-1963.

L. Hüseyinzadə, "Azərbaycanın görkəmli rəssamı", "Şərq qapısı"qəzeti, 21 fevral, 1947.

M. Nəcəfov, "Bəhruz Kəngərli", Bakı-1957.

T. Mahmud, "Uzaqda ucalan dağlar", Bakı-1991.